در هجو سلطان محمود

# SULTAN MAHMUD HAQQЬNDA HƏÇV

Өlkələr fatihi ej Məhmud sultan!
Kimsədən qorqmasan, qorq da tanrыdan!
Səndən əvvəl gələn şahlar da vardы,
Həpsi bəjyk-bəjyk taçidarlardы.
Səndən də jyksəkdi onlarыn jeri,
Ordusu, devləti, taxtы, əfsəri.
Jaxşыlыq, doqruluq gəstərmişdilər,
Onlar əjrilijə son vermişdilər.
Onlar zirdəstə jardыmlar etmiş,
Pak olan jəzdanыn jolilə getmiş.
Onlar çalышdыlar qazansыnlar nam,
Bununla bulsunlar gəzəl sərənçam.
O şah ki, qoşmada altun peşinçə,
Bəjyklər gəzyndə alcalar mənçə.
Gyvənib taxtыna, taçыna əl'an
Mənə dejəçəksən «nədir bu hadjan?»
Xəbərin, joqmudur kəsgin yzymdən?
Məgər qorqmajыrsan qылыç səzymdən?
Məni uqursuzmu, dinsizmi qandыn?
Bu ijit arslanы qojunmu sandыn?
Dejirlər Əlijə, Nəbijə dair,
Jazaraq, jyksəldi bu qaba şair.
Kimin ki Əlijlə dyşmənliji var,
Hər iki dynjada olaçaqdыr xar.
Əl cəkməm onlarыn bəndəlijindən,
Əgər parca-parca doqransam da mən.
Dənməm sevgisindən bu iki şahыn,
Başыmы kəssə də qылыnçы şahыn.
Ançaq biçlər olar onlara duşman,
Jaqar onlarы da atəşdə jəzdan.
Mən kiməm? Nəbinin bir kicik qulu,
Jolumdur hər zaman Əlinin jolu.
Fil ajaqlarыnda fil kibi məni
Aqыtmaq istərsən Nil kibi məni?
Mən qorqmam, yrəjim olduqça nəvvar:
Onda Əli şevqi, Nəbi eşqi var.
O bəjyk tanrыdan vəhj gətirən,
Əmrlər gətiran, nəhj gətirən.
Pejqəmbər demişdi: «Olmajыn asil
Mən elmin şəhrijəm Əli qapыsы».
Demiş bu səzləri bəjyk pejqəmbər,
Hala qulaqlarыm səsini dinlər.
Əgər bulunsajdы aqlыn, tədbirin,
Əlinin janыnda olardы jerin.

Өlynçə dənməraəm bu məsləkimdən,
Hejdər ajaqыnыn topraqыjam mən.
Toqunmaq istəməm bir əzgəsinə,
Mənim bu qapыda dejəçəjim nə!
Məhmud Sultan əgər kecərsə bundan,
Bir arpa dəjəri gəzlənməz, ondan.
Başqa bir sarajda Əli, Pejqəmbər
Tanrыnыn əmrilə qojar taç-zər.
Onlarcыn jazaram dəstan, hekajət,
Jyz Məhmud edərəm bəlkə himajət.
Durduqça sultanlar, durduqça dynja,
Şahlar pəjamыmы alarlar saja.
Bilərlər Firdovsi—O əsil şair—
Jazmamыş naməni Mahmuda dair.
Əlinin, Nəbinin jazdыm adыndan,
Dyr jaqar şe'rimin hər qanadыndan.
Dynjaja Firdovsi gəlməmiş hənuz,
Nə jazыq, talei cыqmыş uqursuz.
Nə jazыq, ńaməmə baqmadan bir an,
Fəna dillər sizi cыqardы joldan.
Ej mənim şe'rimə xor baqan insan!
Dutmasыn əlindən bu cərx-devran.
Mən kecən şahlarы aldыm dastanə,
Gəzəl səzlərimi saldыm dastana.
Өmrym jaqlaşыnça mənim həştadə,
Umudum sarsыldы, sovruldu bada.
Xəzinə şevqilə jyksək sarajda,
Otuz il calышdыm, bulmadыm fajda.
Jazmышam altmыш min şaqraq bejtlər
Həpsində carpышma səsləri gyrlər.
Xənçərdən, qылыçdan, oqdan, kamandan
Kupaldan zirehdən, tozdan, dumandan;
Topuzdan, qalqandan, qaftandan jazdыm;
Dənizdən, qaradan...hər jandan jazdыm.
Jazdыm çanavardan, şirdən pələngdən,
Divdən, əzdəhadan, fildən, nəhəngdən;
Ifritdən, hijlədən, çadudan, quldan,
Onlarыn səsilə titrərdi çahan.
Jazdыm mejdandakы pəhləvanlarы,
Dəjyşdən dəm vuran qəhramanlarы.
Jazdыm ijitlikdən, dərin girdabdan,
Tur ilə Səlmdən, Əfrasijabdan.
Jazdыm Fəridunu, Kej-Qubadы həp.
Zəhhakыn etdiji istibdadы həp.
Samыn, Gəştasibin, Nərimanыn mən,
Jazdыm dyrly-dyrly dəjyşlərindən.
Divbənd Təhmurəsi saldыm dastana,
Jazdыm Minucehri, Huşəngi sana.
Bəhs etdim Çəmşidin qocaqlыqыndan,
Sonsuz şəhrətindən, uçalыqыndan.
Kavusdan, Xosrovdən, taç verənlərdən,
Zal oqlu Rystəmdən, tunç bədənlərdən.
Səksən pəhləvandan, Gudərzdən jazdыm
Hər atlыdan jazdыm, hər dyzdən jazdыm.
Jazdыm şyçaətli Lohrasib şahы,
Qoşunlu, leşkərli Gəştasib şahы.

Mynəççim Çamasbın işini jazdım,
Ajdan parlaq olan kişini jazdım.
Daranı, Darabı, Bəhməni aldım,
Bojyk Iskəndəri kitabə saldım.
Qurdum Ərdəşirə, Şapura dastan,
Jazdım Bahram ilə Nuşirəvandan.
Pərvizi, Qubadı, Hyrmyzy jazdım,
O bojyk Xosrov-Pərvizi jazdım.
Bu adlı ijitlər, bu carpışanlar,
Onlardan, ki verdim sənə nişanlar.
Өlyb getmişdilər dynja yzyndən,
Jeni çan buldular şair sozyndən.
Isa tək onları sozlə diriltdim,
Jenidən həpsini namdar etdim.
Mənim bəndəlijim, baq ej şəhrijar!
Qalaçaq dynjada səndən jadigar.
Mohtəşəm binalar xarab olaçaq,
Gynəşdən, jaqışdan həpsi solaçaq.
Mən japdım şeirdən jyksək bir bina,
Kyləklər, jaqışlar toqunmaz ona.
Keçəçək omyrlər, keçəçək illər,
Səslajaçak məni olkələr, ellər.
Umud ciçəklərim açmadı bir an,
Bunu gozləməzdim şahlar şahından.
Alçaqlar olmasın əsla bəxtijar.
Gozəl sozlərimi fəna sandılar.
Məni şah janında kim jamanlatdı!
Işıqlı julduzu kim dumanlatdı!
Bir mynsif olajdı, dejəjdi bana,
Hər bəla dilindən gəlir başına.
Saçdım soz toxmunu bytyn çahana,
Çahan sozlərimlə dondy rizvana.
Çoq gəlmiş dynjaja şeir dejənlər,
Jazmışlar gojdəki julduzlar qədər.
Onlar çoqdursa da, lakin heç biri,
Jazmamış Firdovsi jazdıqı şe'ri.
Otuz il çalışdım, omyr sərf etdim,
Sozymlə Əçəmi gəldim, diriltdim.
Olmasajdı şahın əli bərk əgər,
Olmazdı məskənim bu quru jerlər.
Çirkin varlıların yzy gylməsin,
Dynjada çomərdlər darlıq bilməsin!
Şahda bulunsajdı əgər mə'rifət,
Məni alçaltmazdı bu qədər əlbət.
Dejildi taçidar şahın əçdadı,
O taç gejənləri xatırlamadı.
Olsajdı atası şahın şah əgər,
Qojardı başıma mənim taç-zər.
Sultanın anası olsajdı xatun,
Dizimə çıqardı gymyşlə altun.
Nəçabəti bojyk olmadıqından,
Uçalıq, bojyklyk bəklənməz ondan.
Şahnamə ystyndə otuz il tamam,
Çalışdım, olajım xəzinə, ən'am.
Ki, Sultanım mənə ejləsin nijaz,
Ijitlər içində qılsın sərəfraz.

Armaqan almadım, oldum dər-bə-dər,
Armaqanım oldu bir fyqa' qədər.
Aldım xəzinədən bir fyqa' pulu,
Xərçlədim etmədən mən jarı jolu.
Artıq nə gozlənsin bu şəhrijardan;
Bu dinsiz, bu jolsuz xijanətkardan!
Bir qulam oqlundan nə ummaq olar?
Hər çənd atası da olmuş şəhrijar.
Fəna insanlardan dynjada, artıq,
Kim gozlərsə əgər umud, jaxşılıq;
Kələfin uçunu itirmiş olar.
Qojnunda jataqan* gəzdirmiş olar.
Açı bir aqaçı çənnətdə əksən,
Gozyny verdiji mejvəjə tiksən;
Sijrab etsən onu çənnət sujundan,
Əsirgəməsən də şəhd-nab ondan;
Inan ki, bunların joqdur ilaçı,
Mejvəsi olaçaq nihajət açı.
Ətirçi janında dolaşsan əgər,
Ystyndən, başından saçlar ənbər.
Hər kəs komyrçynyn janından keçsə,
Şybhəsiz qajıtmaz batmadan hisə.
Fənada jaxşılıq bulunarmı heç!
Geçədən qaranlıq alınarmı heç!
Alçaqın pejmanı, sozy saq olmaz,
Zənçini jumaqla yzy aq olmaz.
Bədəsil adama goz tikmə nahaq,
Saçma hədər jerə gozynə topraq.
Onu haq jaratmış bojlə əzəldən,
Bu jazdan işidir; nə gələr əldən?
Bojyklyk, uçalıq olmaz ki, sozlə?
Iki jyz sozdənsə, jarım iş izlə!
Şahın nəçabəti olsajdı təmiz,
Mə'rifət jolunu dutardı əziz.
Şahların jolundan, bojyk Rystəmdən,
Çoq sozlər sojlədim mən həmən-həmən.
Nədənsə baqmadı şahım bunlara,
Kəsildi omrymyn gynləri qara.
Odur ki, jazmışam mən bu sozləri,
Anlasın, açılsın şahın gozləri.
Etdim sozlərimlə sultana tohmət,
Anlasın ki, nədir ojyt, nəsihət.
Kəndi hormətini qansın bir kərə,
Sıqıntı verməsin bu şairlərə.
Şair inçidimi, həçvə tez qoşar,
Dynja jaşadıqça, həçvi də jaşar.
Jazdanın onyndə qan aqlajaraq,
Anasızın başıma saçaram topraq.
Dejərəm sən onu atəşdə jandır!
Bu qulun ruhunu gəl, ışıqlandır!

Çevirənləri *M. Myşfiq*
*M. Sejid zadə*

* Ilan çinsindən biridir. *Red.*